# AZƏRBAYCAN MEMARLIQ VƏ İNŞAAT UNİVERSİTETİ KİTABXANASININ FONDUNUN QORUNMASI KİTABXANA FƏALİYYƏTİNİN İNKİŞAFININ ƏSAS AMİLİDİR

**Sevinc Vəliyeva**

*BDU, Kitabxanaşünaslıq kafedrasının doktorantı*

"Kitabxana işi haqqında" Azərbaycan Respublikasının qanununda deyilir: "Kitabxana elm, informasiya, mədəniyyət, təhsil, tərbiyə müəssisəsi kimi çap əsərlərinin digər informasiya daşıyıcılarını toplayıb mühafizə edən, onların ictimai istifadəsini təmin edən, cəmiyyətin intellektual mənəvi potensialı inkişafına kömək göstərən sosial institutdur."

Kitabxana fondunun əsas xüsusiyyətləri onun mahiyyətini, kitabxana fəaliyyətinin cəhətlərini müəyyən edən dəyərləri açmağa imkan verir. Lakin bu xüsusiyyətlər özləri özünü göstərmir, fondun yaradılması və istifadəsi prosesindəki hərəkətləri kitabxanaçı tərəfindən məqsədyönlü şəkildə təşkil olunur. Buna görə də, kitabxana işçiləri mütəmadi olaraq kitabxana fondlarının xüsusiyyətləri, gələcəkdə təsirlərinin gücləndirilməsi və ya zəifləməsi barədə dəqiq bir təsəvvürə sahib olmalıdırlar.

Kitabxana fondları vaxt keçdikcə qocalır və yeni məlumatlar daşıyan sənədlərin təqdim edilməsi tələb olunur. Buna görə də, fondun işləməsi üçün ən vacib şərt ən yeni materialların tez bir zamanda təqdim edilməsi və istifadəsinin təşkilidir. Bu səbəbdən, Azərbaycan Memarlıq və İnşaat Universitetinin Kitabxanası 2009-2013-cü illər ərzində kitab fondunu zənginləşdirməklə yanaşı, kitabxananın fondunda olan yararsız hala düşmüş və dövri əhəmiyyətini itirmiş ədəbiyyatları da fonddan çıxararaq silmişdir. Təkcə 2009-2013-cü illər ərzində kitabxanaya ümumilikdə 12951 nüsxə elmi, bədii, xarici ədəbiyyat, dərslik, dövri mətbuat və digər çap məhsulları daxil olmuşdur. Eyni zamanda, hədiyyə olaraq respublikada olan universitetlərin çap etdirdikləri texnikaya aid jurnallar da kitabxanaya verilmişdir.

Fondun qorunmasında əsas işlərdən biri də fondun mühafizə məsələsidir. Mühafizəyə əsasən sosial, fiziki-kimyəvi, bioloji amillər təsir edir. İnzibati rəhbər və kitabxana işçilərinin, habelə, oxucuların əsas vəzifələrindən birincisi kitabxana fondlarının mühafizəsini təmin edən müvafiq şərtlərə əməl edilməsi olmalıdır.

"Kitabxana işi haqqında" Azərbaycan Respublikasının qanununun 19-cu maddəsi xüsusi əhəmiyyət kəsb edən maddələrdən biridir. "Dövlət kitabxanalarına vurulmuş ziyana görə məsuliyyət" adlanan bu maddə,

demək olar ki, kitabxana fondlarının ayrı-ayrı oxucular və kitabxanaçılar tərəfindən dağıdılmasını, mənimsənilməsini, kitabxana fondlarında olan milli, tarixi və elmi əhəmiyyətə malik olan nadir kitabların dağıdılmasının qarşısını alır, beləliklə də, fondun qorunması dövlət əhəmiyyətinə malik bir vəzifə səviyyəsinə qaldırılır. Qanunda göstərilir: "Dövlət kitabxana fondlarının uçotu, mühafizəsi və istifadə qaydalarının pozulmasına görə kitabxana işçiləri qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar".

Azərbaycan Memarlıq və İnşaat Universiteti Kitabxanası kitabxanaçılarda və oxucularda kitabxana fondunun mühafizəsi sahəsində məsuliyyət hissinin artırılması; mühafizədə düzgün mikroiqlim qaydalarının tətbiqi (düzgün işıqlandırma, temperaturun normallığı və tozlardan daimi təmizlənmə); daxil olan kitabların verilişinin və qaytarılan ədəbiyyatın müasir uçotu və ona nəzarət; mühəndis-texniki avadanlığın (elektrik qurğuları, qızdırma sisetmləri, vintilyasiya və s.) düzgün istismarına, yanğın təhlükəsizliyinə nəzarət; fondun ziyanvericilərdən bioloji mühafizəsi kimi qaydalara hər zaman riayət edir.

Sonda qeyd etmək lazımdır ki, respublikamızda bütün kitabxanalar dövlət qayğısı nəticəsində öz fondlarının zənginləşdirilməsinə, onların dövrün tələbləri səviyyəsində formalaşmasına və mühafizə edilib, qorunmasına diqqət yetirir.